# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 1045 nömrəli əmri ilə təsdiq edilmişdir**

## Orta İxtisas Təhsilinin Dövlət Standartı

## Subbakalavr hazırlığı üzrə

# T Ə H S İ L P R O Q R A M I

**Ixtisasın şifri və adı: 040110- "Məktəbəqədər təlim və tərbiyə "**

**BAKI – 2014**

# I. ÜMUMİ MÜDDƏALAR:

**1.1.** Subbakalavr səviyyəsinin **040110-**“Məktəbəqədər təlim və tərbiyə” ixtisası üzrə Təhsil proqramı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş “Orta ixtisas təhsil pilləsinin dövlət standartı və proqramı”, “Orta ixtisas təhsilinin məzmunu və təşkili qaydaları”nın tələblərinə və Azərbaycan Respublikasının Təhsil Nazirinin “Orta ixtisas təhsilinin ixtisasları üzrə Təsnifatı”na uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilatı-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən akkreditasiyadan keçmiş Orta ixtisas təhsil müəssisələrinin 040110-“Məktəbəqədər təlim və tərbiyə” ixtisası üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:

**OİT**- orta ixtisas təhsili
**TM** –təhsil müəssisələri
**OİTP**-orta ixtisas üzrə təhsil proqram
**ÜK**-ümummədəni kompetensiyalar
**PK**-peşə kompetensiyaları
**HF**-Humanitar fənlər bölümü
**İPF**-ixtisasın peşə hazırlığı fənləri bölümü

**1.4. 040110-“Məktəbəqədər təlim və tərbiyə” ixtisasının xarakteristikası**

OİTP-nın mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| **İxtisasın şifri və adı** | **ixtisas dərəcəsi** | **Əyani forma üzrə təhsil müddəti*** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| 040110 “Məktəbəqədər təlim və tərbiyə” | subbakalavr | Tam orta təhsil bazasında 3 il | 180 |

*Ümumi orta təhsil bazasından və Qiyabi forma üzrə təhsil müddəti 1 il artıqdır. (ixtisas üzrə qiyabi formada təhsil nəzərdə tutulduqda)

## II. Məzunun ixtisas xarakteristikası və kompetensiyası.

**2.1. Subbakalavrın ixtisas xarakteristikası.**

040110-“Məktəbəqədər təlim və tərbiyə” ixtisası üzrə subbakalavr dövlət və qeyri-dövlət məktəbəqədər müəssisələrində, körpələr evində, uşaq bağçasında,körpələr evi-uşaq bağçalarında, xüsusi uşaq bağçalarında və uşaq evlərində tərbiyəçi fəaliyyətinə, eləcə də təhsilin bakalavr pilləsində davam etdirməyə hazır olmalıdır.

**2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**2.2.1. Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir:**

Öz ixtisasının mahiyyətini və sosial mənasını bilməli, ona davamlı maraq göstərməli (ÜK-1);

Məktəbəqədər yaşlı uşaqların təhsilində həmkarları, valideynlər, onları əvəz edən şəxslər və digər təhsil müəssisələri ilə qarşılıqlı iş fəaliyyəti qurmalı (ÜK-2);

Öz peşə fəaliyyətini təşkil etməli, vəzifə borcunun yerinə yetirilməsi üçün müxtəlif metodlar seçməyi və onları qiymətləndirməyi bacarmalı (ÜK-3);

Müstəqil və təşəbbüskar olmalı, lazım gəldikdə məsuliyyəti öz üzərinə götürməli (ÜK-4);

Hüquqi biliklərə və etik normalara malik olmalı (ÜK-5);

Sağlam həyat tərzini gözləməli (ÜK-6);

Kollektivdə işləməli, digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmağı bacarmalı (ÜK-7);

Yeni ideyalar irəli sürməyi və əsaslandırmağı (ÜK-8);

Öz inkişafına, peşəkarlığının artırılmasına çalışmalı (ÜK-9);

İKT-dən istifadə etməyi bacarmalı (ÜK-10);

Xarici dildə sadə mətnləri oxuyub tərcümə etməyi və fikrini ifadə ettməli (ÜK-11);

Fikrini düzgün və yığcam ifadə etməli (ÜK-12);

Tənqid və özünütənqidə dözümlülük göstərməli(ÜK-13);

**2.2.2. Məzun aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir:**

**İstehsalat-pedaqoji sahə üzrə:**

**Uşaqlarla ünsiyyət və müxtəlif fəaliyyət növlərinin təşkili:**

Gün ərzində uşaqlarla ünsiyyət və müxtəlif fəaliyyət növlərinin planlaşdırılması (PK-1);

Körpə yaşlılar və məktəbəqədər yaşlı uşaqlarla müxtəlif oyunların təşkili (PK-2);

Müxtəlif yaş qruplarında uşaqların özünəxidmət əməyinin təşkili (PK-3);

Uşaqlarla ünsiyyətin təşkili (PK-4);

Uşaqların səmərəli fəaliyyətinin təşkili (rəsm, yapma, kəsib yapışdırma, quraşdırma) (PK-5);

Körpə və məktəbəqədər yaşlı uşaqlar üçün əyləncə və bayramların təşkili və keçirilməsi (PK-6);

Uşaqlarla ünsiyyət və təşkil olunmuş müxtəlif fəaliyyət növlərinin nəticələrinin təhlili (PK-7);

Fəaliyyət sahəsinə aid olan fənlərin konkret tətbiqi sahələrini bilmək (PK-8);

Peşə fəaliyyətində İKT-dən istifadə etmək (PK-9);

İxtisasla bağlı anlayış və terminlərin mənasını bilmək və tətbiq etmək (PK-10);

**Təşkilati-inzibatçılıq sahəsi üzrə:**

**Təhsil müəssisəsinin işçiləri və valideynlərlə qarşılıqlı fəaliyyəti:**

Valideynlərlə işin məqsədi , vəzifələrini müəyyənləşdirmək və planlaşdırmaq (PK-11);

Uşağın ailə tərbiyəsi, sosial, emosional və fiziki inkişafı ilə əlaqədar fərdi məsləhətlər keçirmək (PK-12);

Valideynlərlə işin nəticəsini təhlil etmək və qiymətləndirmək(PK-13);

**Uşaqların fiziki inkişafı və sağlamlığının möhkəmləndirilməsinə yönəldilmiş tədbirlərin təşkili:**

Uşaqların sağlamlığının möhkəmləndirilməsi və fiziki inkişafına yönəldilmiş tədbirlərin təşkili və planlaşdırılması (PK-14);

Uşaqların yaş xüsusiyyətinə uyğun gün rejiminin tərtibi və təşkili (PK-15);

Hərəkət rejiminin yerinə yetirilməsində fiziki tərbiyə üzrə tədbirlərin keçirilməsi (PK-16);

**Pedaqoji sahə üzrə:**

**"Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı"na əsasən məşğələlərin təşkili:**

Məktəbəqədər yaşlı uşaqlarla məşğələlərin planlaşdırılması, məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi (PK-17);

Məktəbəqədər yaşlı uşaqlarla məşğələlərin keçirilməsi və təhlili (PK-18);

Təlim prosesinin gedişini və nəticələrinin qiymətləndirilməsi, pedaqoji nəzarətin reallaşdırılması (PK-19);

Məşğələnin təşkilini təmin edən resursların hazırlanması (PK-20);

**Təhsil prosesinin metodiki cəhətdən təchizatı:**

Uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq metodiki materialların hazırlanması (PK-21);

Qrupda əyani-inkişafetdirici şəraitin yaradılması (PK-22);

Məktəbəqədər təhsil sahəsində metodiki ədəbiyyatları və başqa pedaqoqların iş təcrübəsini öyrənməklə öz fəaliyyətini təkmilləşdirməsi (PK-23);

Elektron kitabxanalardan, internetdən yeni materiallar əldə etməklə hesabat, referat, məruzə formasında metodiki işlərin tərtibi (PK-24);

## III. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

### 3.1. Peşə fəaliyyətinin xarakteristikası.

**3.1.1. Peşə fəaliyyətinin əsas istiqamətləri:**

040110-"Məktəbəqədər təlim və tərbiyə" ixtisası üzrə subbakalavr fəaliyyətinin əsas istiqamətləri:

-pedaqoji;
-istehsalat-pedaqoji;
-təşkilatı-inzibatçılıq.

**3.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.**

**Pedaqoji fəaliyyət üzrə:**

- Mülkiyyət növündən asılı olmayaraq məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyət göstərmək;
- Peşə fəaliyyəti üzrə maarifləndirici işlərin aparılması üsullarına yiyələnmək.

**İstehsalat-pedaqoji üzrə:**

- Məktəbəqədər təhsilə dair informasiyaların toplanması və istifadəsi üsullarına yiyələnmək;
- İxtisas fənlərinin ümumi mənzərəsini qura bilmək;
- Peşə fəaliyyətində kompyüter texnologiyasından istifadə etmək.

**Təşkilatı-inzibatçılıq fəaliyyəti üzrə:**

- qərarlar qəbul etməyi, nəticələrini proqnozlaşdırmağı və ümumiləşdirməyi bacarmaq;
- təhsil müəssisələrində həyata keçiriləcək məsələlərin həllində iştirak etməyə hazır olmaq.
-

## IV. Orta ixtisas təhsili proqramının strukturuna olan tələblər:

**4.1.** Təhsil proqramına aşağıdakı fənn bölümləri daxildir:

Humanitar və sosial-iqtisadi fənlər;
İxtisas və peşə hazırlığı fənləri bölümü;
Təcrübələr – istehsalat təcrübəsi (ixtisasa uyğun və diplomqabağı);
Yekun attestasiya- yekun dövlət imtahanı;
* Seçmə fənlər Orta ixtisas müəssisəsi tərəfindən müəyyənləşdirilir.

## 4.2.Ümumtəhsil fənlər bölümü

| № | Fənlərin adı | Auditoriya saatları | Semestr üzrə bölgü | |
|---|---|---|---|---|
| | | | I semestr | II semestr |
| 1 | Azərbaycan dili(təlim rus d-də) ** | 60 | 2 | 2 |
| 2 | Azərbaycan dili(rus) dili | 90 | 4 | 2 |
| 3 | Ədəbiyyat | 90 | 2 | 4 |
| 4 | Xarici dil | 60 | 2 | 2 |
| 5 | Azərbaycan tarixi | 30 | - | 2 |
| 6 | Tarix | 30 | 2 | - |
| 7 | İnsan və cəmiyyət | 30 | - | 2 |
| 8 | İqtisadiyyatın əsasları | 30 | | 2 |
| 9 | Cəbr və analizin başlanğıcı | 60 | 2 | 2 |
| 10 | Həndəsə | 30 | | 2 |
| 11 | İnformatika | 45 | 3 | |
| 12 | Fizika | 60 | 2 | 2 |
| 13 | Astronomiya | 30 | | 2 |
| 14 | Kimya | 60 | 2 | 2 |
| 15 | Biologiya | 30 | 2 | |
| 16 | Fiziki coğrafiya | 45 | 3 | |
| 17 | Fiziki tərbiyə | 60 | 2 | 2 |
| 18 | GÇH | 60 | 2 | 2 |

**Qeyd:** Ümumtəhsil fənləri bölümünə daxil olan fənlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.10.2006-cı il tarixli, 233 №li qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)"na uyğun müəyyənləşdirilir. Birinci kurslarda ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

- **Azərbaycan bölməsində təhsil müəssisəsinin bu saat hesabına ixtisasın profilinə uyğun müəyyənləşdirdiyi fənnlər tədris oluna bilər.

* Orta ixtisas məktəblərinin təklifləri əsasında Azərbaycan bölməsində təhsil alanlar öz arzuları ilə həmin saat həcmində ikinci xarici dili və ya Azərbaycan dili və nitq mədəniyyəti fənnini seçə bilərlər.

** Seçmə fənlərə orta ixtisas məktəbi tərəfindən fəlsəfə, politologiya, sosiologiya, milli əxlaq və ailə etikası, dövlət və vətən mədəniyyəti, hüququn əsasları və s. humanitar, sosial-iqtisadi fənlər daxil edilə bilər.

*** Ümumtəhsil fənlər bölümü yalnız ümumi orta təhsil bazasından qəbul olunanlara adidir. Bu bölümdə seçmə fənlər üçün nəzərdə tutulan saatlar ixtisas yönümünə uyğun fənlərə verilir.

**** Humanitar fənlər bölümünə daxil olan "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Azərbaycan tarixi", "Xarici dil" fənləri tam orta təhsil bazasından qəbul olunanlar üçün birinci, ümumi orta təhsil bazasından qəbul olunanlar üçün isə ikinci dərs ilindən başlayaraq tədris olunur.

***** İxtisasın peşə hazırlığı bölümünün seçmə fənləri orta ixtisas məktəbi tərəfindən müəyyənləşdirilir. Peşə hazırlığının seçmə fənləri bir neçə bloka ayrılır: ixtisas hazırlığının seçmə fənləri və ixtisaslaşmaların seçmə fənləri. Tələbə ixtisas hazırlığı bir fənn, seçdiyi ixtisaslaşma blokunun bütün fənlərini seçməlidir.

### 4.3. İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümü-nün kodu | Fənn bölümləri, onların mənim-sənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımınd an) | Fənn bölmələri üzrə kre-ditlərin sayı | Fənlər | Fənlər üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **HF-BOO** | **Humanitar və sosial-iqtisadi fənlər bölümü:**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br><br>**Bilməlidir:**<br>-Azərbaycan Respublikasının dövlət dilini (Azərbaycan dilini) sərbəst bilməli, onun leksikonundan peşə fəaliyyətində istifadə etməyi;<br>-Azərbaycan xalqının və dövlətinin tarixini, azadlıq, demokratiya və müstəqillik yolunda qazandığı nailiyyətləri;<br>-İxtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyi;<br>-Cəmiyyətin ümumi inkişaf | **28** | **HF-BO1**<br>Azərbaycan dili (təlimi rus dilində olanlar üçün)<br><br>**HF-BO2**<br>Azərbaycan tarixi | 6<br><br>4 | **ÜK-1**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-7**<br>**ÜK-9**<br>**ÜK-11**<br><br>**ÜK-12** |

| | | | | | |
|---|---|---|---|---|---|
| İPF-BOO | qanunauyğunluqlarını, demokratiyanın əsas prinsiplərini, beynəlxalq prosesləri;<br>-sosial mühit və sosial vərəsəlik münasibətlərini bilməli, sosial təcrübələrin toplanması, saxlanılması və ötürülməsi haqqında təsəvvürlərə malik olmalı, milli və mədəni-tarixi faktorların təhsil və tərbiyədə rolunu;<br>-Azərbaycan Respublikasının Konstitusiyasının əsas müddəaları, insan və vətəndaşın hüquq, vəzifə və azadlıqlarını, təhsilin hüquqi tənzimlənməsini, əmək müqaviləsi, onun bağlanması və xitam verilməsi qaydalarını; tərbiyəçinin sosial-hüquqi statusunu;<br>**Bacarmalıdır:**<br>-Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə elmi təsəvvürə, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı, tarixi hadisələrin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi;<br>-İxtisasa aid xarici dildə ədəbiyyatı lüğətlə tərcümə etməyi,<br>-xarici dildə sadə ünsiyyət qurma bacarığı;<br>- təhsil müəssisələrində fəaliyyət zamanı normativ-hüquqi sənədlərdən istifadə etməyi, prosesual və əmək qanunvericiliyinə görə hüquqlarını müdafiə etməyi, öz peşə fəaliyyətini təşkil etməyi, vəzifə borcunun yerinə yetirilməsi üçün müxtəlif metodlar seçməyi və onları qiymətləndirməyi;<br>-cəmiyyətdə baş verən prosesləri təhlil etməyi;<br>**Yiyələnməlidir:**<br>-Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadəyə;<br>-Xarici dildə olan ixtisasa uyğun materiallardan istifadəyə;<br>-peşə fəaliyyətinin hüquqi təminatı haqqında biliklərə və etik normalara;<br><br>**İxtisas peşə hazırlığı fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br><br>**Bilməlidir:**<br>- İKT-ni, informatikanın əsas anlayışlarını, informasiyanın axtarışı, əldə edilməsi, ötürülməsi və internetdən istifadə yollarını;<br>-tədris prosesində texniki təhlükəsizlik | **116** | **HF-BO3**<br>Xarici dil<br><br>**HF-BO4**<br>Seçmə fənlər*<br><br>**İPF-BO1**<br>Təlim Prosesində Informasiya kommunikasiya texnologiya-larindan | 8<br><br>10<br><br>6 | **ÜK-1**<br>**ÜK-4**<br>**ÜK-5**<br><br>**ÜK-10**<br>**PK-1**<br>**PK-8**<br>**PK-14**<br>**PK-15** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | qaydalarını və gigiyenik tələbləri;<br>**Bacarmalıdır:**<br>-peşə fəaliyyətində İKT-dən istifadə etməyi;<br>-təlim prosesinin mahiyyətini, təlimin qanunauyğunluqlarını, prinsiplərini, metod-larını, vasitələrini, yeni təlim texno-logiyalarını və təşkili formalarını ixtisasına uyğun həyata keçirməyi;<br>**Yiyələnməlidir:**<br>- İKT –dən istifadə etməklə müasir təlim metodlarını tətbiq etmək bacarıqlarına; | | istifadə | | **PK-16**<br>**PK-19**<br>**PK-22**<br>**PK-24** |
| | **Bilməlidir:**<br>-Pedaqogikanın tarixini, ümumi nəzəri əsaslarını, məzmununu və pedaqoji prosesin qanunauyğunluqlarını;<br>-Azərbaycan Respublikasının Təhsil sistemi və onun dünya təhsil sisteminə inteqrasiyasını; Millilik və dünyəvilik-milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsini;<br>-Məktəbəqədər təhsilin milli və dünya təcrübəsindən bəhrələnməsi, məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji prosesin təşkili və məzmununun xüsusiyyətlərini, “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı”nı;<br>Uşaqların müxtəlif fəaliyyəti zamanı onlarla ünsiyyətin planlaşdırılmasının nəzəri əsasları və metodikasını;<br>-körpə yaşlılar və məktəbəqədər yaş dövründə oyun fəaliyyətinin özünəməxsusluğu və mahiyyəti; uşaqlarla oyun fəaliyyətinin təşkilinin və keçirilməsinin məzmunu və üsulunu;<br>-məktəbəqədər yaşlı uşaqlarla əmək fəaliyyətinin özünəməxsusluğu və mahiyyəti, uşaqlarla əmək fəaliyyətinin təşkilinin məzmunu və üsulunu;<br>-məktəbəqədər yaşlıuşaqlarla təhsilin təşkili formalarını;<br>-məşğələlərdə uşaqların təlim və tərbiyəsinin nəzəri və metodik əsaslarını;<br>**Bacarmalıdır:**<br>-pedaqoji təzahür və hadisələri, pedaqoji fəaliyyəti təhlil etməyi; | | **İPF-BO2**<br>Pedaqogika | 10 | **PK-8**<br>**PK-11**<br>**PK-19**<br>**PK-21** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq;<br>-uşaqların oyun, əmək fəaliyyətinə rəhbərliyin məzmun, məqsəd, vəzifələrinin üsul və vasitələrini aydınlaşdırmağı;<br>-uşaqlarla oynamaq və onları müstəqil oyun fəaliyyətinə təhrik etməyi;<br>-uşaqların yaşlarına uyğun sadə əmək tapşırıqlarının təşkili (məişət-təsərrüfat əməyi, canlı guşədə və sahədə əmək, əl əməyi və s.);<br>-müxtəlif yaş qruplarında keçirilən məşğələlərin uşaq şəxsiyyətinin inkişafına və tərbiyəsinə təsiri, təhsilin məqsədini aydınlaşdırmağı;<br>- qoyulan məqsədə uyğun olaraq, mövzunun, iş formasının, üsullarının müəyyənləşdirilməsini;<br>**Yiyələnməlidir:**<br>- planlaşdırmada kurikulumun əsas istiqamətlərinə müvafiq olaraq, inteqrasiyaya;<br>-məşğələlərin icmalını, fəal təlimin mərhələlərinə uyğun tərtib etməyə; | | | | |
| | **Bilməlidir:**<br>-Psixologiyanın predmetini, metodlarını, psixi prosesləri, psixi inkişafın qanunauyğunluqlarını, məktəbəqədər yaşlı uşaqların yaş və fərdi-psixi xüsusiyyətlərini<br>**Bacarmalıdır:**<br>-Pedaqoji tapşırıqların icrası zamanı psixoloji biliklərindən istifadə;<br>Uşaqların fərdi-psixi xüsusiyyətlərini aşkara çıxartmaq;<br>**Yiyələnməlidir:**<br>-Uşaq psixologiyasını, uşaq şəxsiyyətinin formalaşması və psixi inkişafının qanunauyğunluqlarına; | | **İPF-BO3**<br>Psixologiya | 6 | **ÜK-6**<br>**PK-14**<br>**PK-16** |
| | **Bilməlidir:**<br>-Uşaq anatomiyası- fiziologiyası bir elm kimi nəzəri əsaslarını, insan orqanizminin quruluşu və inkişaf qanunauyğunluqlarını;<br>-insan orqanizminin fizioloji xüsusiyyətlərini;<br>**Bacarmalıdır:**<br>-Bədən üzvləri və hissələrinin simmetriyasını düzgün təyin etməyi;<br>-iş prosesində anatomiya, fiziologiya və gigiyena haqqında aldıqları biliklərin tətbiqini;<br>-məktəbəqədər yaş dövründə ətraf mühitin | | **İPF-BO4**<br>Uşaq anatomiyası və fiziologiyasının əsasları | 4 | **ÜK-6**<br>**PK-12**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-20** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | uşağın orqanizminin fəaliyyətinə və inkişafına təsirini;<br>**Yiyələnməlidir:**<br>-uşaqların yaşlarına uyğun anatomik-fizioloji xüsusiyyətlərini müəyyənləşdirməyi;<br>-fizioloji prosesin uşağın fiziki və psixi inkişafına təsiri;<br>-uşağın həyatında gigiyenik tələblərin gözlənilməsinə;<br>-infeksion xəstəliklərin profilaktikasında tədbirlərin icrasına;<br><br>**Bilməlidir:**<br>-Fiziki tərbiyə nəzəriyyəsinin əsas anlayışlarını; fiziki tərbiyənin vəzifələrini; müxtəlif yaş qruplarında iş formalarını;<br>-Uşaqların yaşlarına uyğun olaraq, fiziki tərbiyə işinin planlaşdırılmasını;<br>-Mədəni-gigiyenik bacarıqların tərbiyəsi üçün şəraitin yaradılmasını;<br>-Uşaqlarda gündəlik səhər gimnastikası və fiziki tərbiyə məşğələlərinə müsbət emosiya və maraq yaradılması yollarını;<br>-Məktəbəqədər müəssisələrdə fiziki tərbiyə prosesində istifadə edilən avadanlıqlara verilən gigiyenik tələbləri;<br>**Bacarmalıdır:**<br>-Gündəlik rejimin planlaşdırılmasını;<br>- müxtəlif yaş qruplarında səhər gimnastikası, məşğələlər, gəzinti, idman əyləncələri, bayramların, sağlamlığın möhkəmləndirilməsi üsullarını, mədəni-gigiyenik adətlərin tərbiyəsi və sağlamlığın möhkəmlən-dirilməsinə yönəldilmiş gündəlik rejimin təşkili və keçirilməsini (yuyunma, geyinmə, nahar, yuxu);<br>-uşaqların sağlamlığı ilə əlaqədar məktəbəqədər müəssisənin tibb işçiləri ilə qarşılıqlı fəaliyyətinin təşkil etməyi;<br>-fiziki tərbiyə üzrə keçirilən tədbirlərin müşahidəsini, fiziki inkişafın nəticələrinin müəyyənləşdirilməsi və təhlilini;<br>**- Yiyələnməlidir:**<br>-təhsil prosesində idman avadanlıqlarından istifadə etməyə;<br>-musiqi sədaları altında uşaqlara fiziki təmrinləri və ritmik hərəkətləri nümayiş etdirməyi;<br>-uşağın təhsil müəssisəsində olduğu müddətdə onun sağlamlığına nəzarət etməyə; | | **İPF-BO5**<br>Uşaq bağçasında fiziki tərbiyənin tədrisi metodikası | 6 | **PK-4**<br><br>**PK-7**<br><br>**PK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -gəzintidə mütəhərrik oyunların təşkili və keçirilməsi bacarıqlarına; | | | | |
| | **Bilməlidir:**<br>-Loqopediya haqqında əsas bilikləri;<br>-loqopediyanın mövzusu, məqsədi və vəzifəsi, başqa elmlərlə əlaqəsi, loqopediyanın elmi metodları, nitq qüsurlarının təsnifatını;<br>**Bacarmalıdır:**<br>-uşaqlarda nitq qüsurlarının aradan qaldırılması üsulları və metodlarını tətbiq etməyi;<br>-nitqin inkişafdan qalması, kəkələmə, səs qüsurlarının aradan qaldırılması yollarını;<br>**Yiyələnməlidir:**<br>-dislaliya haqqında ümumi məlumata, nitqin anatomik-fizioloji mexanizmləri və patalogiyasına, uşaqların psixi inkişafının bəzi qanunauyğunluqları və onların nitq inkişafı ilə əlaqəsi xüsusiyyətlərinə; | | **İPF-BO6**<br>Loqopediya | **8** | **ÜK-12**<br>**PK-4**<br>**PK-9**<br>**PK-10** |
| | **Bilməlidir:**<br>-Azərbaycan dilinin yazılı və şifahi nitq qaydalarını;<br>-məktəbəqədər müəssisələrdə azərbaycan dilinin öyrədilməsinin məqsədini; uşaqlara düzgün tələffüz qaydalarının qavranılması üçün dil və onun qrammatik quruluşu haqqında bilikləri;<br>**Bacarmalıdır:**<br>-Azərbaycan dilinin imkanlarından geniş istifadə etməyi, düzgün ədəbi tələffüzə malik olmağı;<br>**Yiyələnməlidir:**<br>-İfadəli qiraət, öz şifahi və yazılı nitqlərini qrammatik və üslubi cəhətdən səlist qurmaq, yazıda orfoqrafiya qaydalarını gözləmək vərdişlərinə; | | **İPF-BO7**<br>Azərbaycan dili | 8 | **ÜK-10**<br>**ÜK-12**<br>**PK-20**<br>**PK-22**<br>**PK-23** |
| | **Bilməlidir:**<br>-Uşaq ədəbiyyatına aid nəzəri əsasları, uşaq şair və yazıçılar haqqında məlumatları və seçilmiş nümunələri; ifadəli oxu qaydalarını;<br>**Bacarmalıdır:**<br>-İfadəli qiraət, şifahi nitqini qrammatik və üslubi cəhətdən səlist qurmağı;<br>-müxtəlif janrlara aid əsərlərin ifadəli oxu (texniki, məntiqi, intonasiya) texnikasını;<br>**Yiyələnməlidir:**<br>-şifahi xalq ədəbiyyatı nümunələrindən uşaqların psixoloji inkişafında, həyat | | **İPF-BO8**<br>Uşaq ədəbiyyatı və ifadəli oxu | 8 | **PK-4**<br>**PK-9**<br>**PK-6**<br>**PK-20**<br>**PK-22** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | həqiqətlərinin düzgün dərk edilməsində istifadəyə; | | | | |
| | **Bilməlidir:**<br>-musiqi nəzəriyyəsini və “Məktəbəqədər təhsil proqramı”nda müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş musiqi məcmuəsini;<br>-məktəbəqədər yaşlı uşaqlarla bayramların, əyləncələrin təşkili və keçirilməsinin nəzəri və metodik əsaslarını;<br>**Bacarmalıdır:**<br>-musiqi alətlərində ifa etməyi, rəqs etməyi və oxumağı;<br>-bayram və əyləncələrə hazırlıq və onların keçirilməsinin təşkilini;<br>**Yiyələnməlidir:**<br>-uşaq musiqi ifasının xüsusiyyətlərinə;<br>-musiqi hazırlığında xor oxumalarına; | | **İPF-BO9**<br>Musiqi və onun tədrisi metodikası | 6 | **ÜK-10**<br>**PK-1**<br>**PK-4** |
| | **Bilməlidir:**<br>-nitq inkişafı metodikasının xüsusiyyətlərini;<br>-körpəlik dövründə nitq inkişafı metodikasını;<br>-məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi yollarını;<br>**Bacarmalıdır:**<br>-uşaqların nitqinin, səs mədəniyyətinin tərbiyəsi;<br>-uşaqların lüğət ehtiyatlarının zənginləş-dirilməsi üzrə işin metodikasının təşkilini;<br>**Yiyələnməlidir:**<br>-uşaqların bədii ədəbiyyatla tanış edilməsi, onların savad təliminə hazırlaşdırılması metodikasına. | | **İPF-BO10**<br>Nitq inkişafı metodikası | 6 | **ÜK-1**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-18**<br>**PK-20**<br>**PK-21**<br>**PK-22** |
| | **Bilməlidir:**<br>-sadə riyazi təsəvvürlərin formalaşdırılması metodikasının məktəbəqədər yaşlı uşaqların əqli inkişafında rolu və əhəmiyyətini;<br>-əsas riyazi anlayışları;<br>-kiçik, orta, böyük və məktəbə hazırlıq qruplarında sadə riyazi təsəvvürlərin formalaşdırılmasını;<br>**Bacarmalıdır:**<br>-müxtəlif yaş qruplarında s.r.t.f.metodikası üzrə işin planlaşdırılmasını;<br>-məşğələlərdə interaktiv təlim metodlarından istifadə etməyi;<br>**Yiyələnməlidir:**<br>-məşğələdə və məşğələdən kənar vaxtlarda məntiqi tapşırıqlardan istifadə etmə | | **İPF-BO11**<br>Sadə riyazi təsəvvürlərin formalaşması metodikası | 10 | **ÜK-2**<br>**ÜK-7**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | bacarığına;<br>-uşaq bağçası ilə ailə, məktəbin birgə işinin təşkilinə;<br>-məşğələlərdə İKT-dən istifadə etməyə. | | | | |
| | **Bilməlidir:**<br>- Ətraf aləm və təbiətlə tanışlıq metodikası kursunun məqsəd və vəzifələrini;<br>-təbiətin uşaqların həyatında rolunu;<br>-təbiətin qorunması haqqında qanunvericiliyi;<br>-Vətənimizin təbiətini;<br><br>**Bacarmalıdır:**<br>-uşaqların ekologiya tərbiyəsinin vasitə və yollarından- məşğələ, əmək, oyun, ekskursiya, gəzinti, təbiət guşəsində iş, torpaq sahəsində iş, müşahidə, müsahibə, bədii ədəbiyyatın oxunmasından istifadəni;<br>**- Yiyələnməlidir:**<br>-müxtəlif yaş qruplarında iş planının tərtibinə;<br>-məşğələlərdə inteqrasiyadan istifadəyə. | | **İPF-BO12**<br>Ətraf aləm və təbiətlə tanışlıq metodikası | 8 | **PK-1**<br>**PK-5**<br>**PK-10**<br>**PK-20**<br>**PK-21**<br>**PK-22** |
| | **Bilməlidir:**<br>-rəsm, yapma, applikasiya və quraşdırma məşğələlərinin nəzəri əsaslarını , məşğələlərin planlaşdırılmasında əl işlərinin bədii tərtibatda verilmə texnologiyasını;<br>-yaradıcı fəaliyyətin özünəməxsusluğu və uşağın fərdi xüsusiyyətlərini üzə çıxarılması yollarını;<br>-əl işlərinin təhlili və qiymətləndirilməsini;<br>**Bacarmalıdır:**<br>-uşaqların yaş səviyyəsinə uyğun qarşıya qoyulmuş təlimin məqsəd və vəzifələrini, fəaliyyət növlərinin məzmununu, təlimin üsul və vasitələrini sərbəst təyin etməyi;<br>-rəsm, yapma, applikasiya və quraşdırma prosesində uşaqların yaradıcı fəaliyyətinin təhlili və qiymətləndirməyi;<br>-naturadan rəsm və sadə heykəltəraşlıq işlərinin icrasını;<br>-bayram günləri, tədbirlərin hazırlanması və keçirilməsində əl işlərinin tərtibatını;<br>**Yiyələnməlidir:**<br>-yaş xüsusiyyətinə görə həvəsləndirici, öyrədici və yaradıcı məşğələlərin təşkili və keçirilməsində üsul və vasitələrin sərbəst təyini və istifadəyə;<br>-hər yaş qrupuna görə sərbəst icmalın hazırlanmasına; | | **İPF-BO13**<br>Təsviri incəsənət və onun tədrisi metodikası | 6 | **PK-5**<br>**PK-9**<br>**PK-20**<br>**PK-22** |
| | **Bilməlidir:** | | | | **ÜK-6** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -kağızın, kartonun, təbiət materiallarının emalı texnikasını;<br>-applikasiya üçün istifadə olunan materiallar və onlarla iş texnikasını;<br>**Bacarmalıdır:**<br>-təbiət materiallarından applikasiya və quraşdırma işlərini hazırlamağı;<br>-oyuncaqların təmiri üzrə işi;<br>-kukla və kölgə teatrı üçün oyuncaqların hazırlanmasını;<br>**Yiyələnməlidir:**<br>-Əl işlərinin hazırlanmasına verilən pedaqoji, estetik və texniki tələblərin yerinə yetirilmə qaydalarına. | | **İPF-BO14**<br>Texnologiya və onun tədrisi metodikası | 4 | **PK-9**<br>**PK-11**<br>**PK-13** |
| | **Bilməlidir:**<br>- Tibbi biliklərin əsaslarını, ilk tibbi yardımın göstərilməsi qaydalarını;<br>-uşaq xəstəlikləri və onlarla mübarizə yollarını;<br>**Bacarmalıdır:**<br>-xəstələrə ümumi qulluq, ilk tibbi yardımın göstərilməsini;<br>**Yiyələnməlidir:**<br>-ilk tibbi yardımın həyata keçirilməsi qaydalarına; | | **İPF-BO15**<br>Tibbi biliklərin əsasları | 2 | **ÜK-6**<br>**ÜK-9**<br>**ÜK-12**<br>**PK-8**<br>**PK-9** |
| | **Bilməlidir:**<br>-səslərin düzgün tələffüz qaydalarını, məktəbəhazırlıq qruplarında sadə cümlə qurmağı uşaqlara öyrədilməsi üsullarını;<br>-müəllimin pedaqoji fəaliyyətdə yerini;<br>-Pedaqoji bacarıq və qabiliyyətini;<br>-təhsil prosesində müasir təlim texnologiyalarından istifadəni;<br>-rəqs elementlərini ;<br>-inklüziv təhsilin məqsədini, vəzifəsini və mahiyyətini, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin xüsusiyyətlərini və kompensator imkanlarını;<br>**Bacarmalıdır:**<br>-əyani vəsaitlərin köməkliyi ilə sözlərdəki sait və samit səsləri tapmağı;<br>-uşaqlarla ünsiyyətdəki əsas çətinlikləri aradan qaldırmağı, pedaqoji ünsiyyəti müşahidə və təhlil etməyi;<br>-dinamik ritmə uyğun hərəkət etdirməyi;<br>-xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam uşaqlarla birlikdə təlim və tərbiyəsini təşkil etməyi; | | **İPF-BO16**<br>Seçmə fənlər | 18 | **PK-10**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-21**<br>**PK-23**<br>**PK-24** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Yiyələnməlidir:**<br>-Pedaqoji etikaya, pedaqoji takta, natiqlik məharətinə;<br>-Uşağın şəxsiyyət kimi formalaşmasında üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə;<br>-Azərbaycan və dünya rəqslərinin elementlərinin uşaqlara öyrədilməsinə;<br>-Fiziki imkanları məhdud uşaqların təhsilinin təşkili bacarığına;<br><br>**Təcrübələr:**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan<br>**Bilməlidir:**<br>-müxtəlif yaş qruplarının gün rejimini;<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərinin təşkili və keçirilməsi metiodikasını;<br>**Bacarmalıdır:**<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərinə rəhbərliyi və onlarla ünsiyyət qurmağı;<br>**Yiyələnməlidir:**<br>- gün ərzində uşaqların müxtəlif fəaliyyətlərində , məşğələlərdə interaktiv təlim metodlarından istifadə olunmasına<br><br>**Yekun attestasiya:**<br>**Tam orta təhsil bazasında kreditlərin ümumi cəmi:** | **30**<br><br>**6**<br>**180** | | | |

*Bütün bölümlərdə seçmə fənlər müvafiq şərtlərə (kompetensiyalara) uyğun orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.

*Fiziki tərbiyə idmanın növləri üzrə bölmələrdə keçirilir.

## 4.4. 040110-“Məktəbəqədər təlim və tərbiyə” ixtisası üzrə subbakalavr təhsil proqramının yerinə yetirilməsinin müddəti:

Subbakalavr təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr – 198;
Tam orta təhsil bazası - 146;
Nəzəri təlim üçün ayrılan həftə-ümumi orta təhsil bazası - 102;
Tam orta təhsil - 72;
O cümlədən təcrübələr üçün ayrılan həftələr - 20;
İmtahan sessiyası üçün ayrılan həftələr-ümumi təhsil bazası - 34;
Tam orta təhsil bazası -24;
Tətillər üçün ayrılan həftələr-ümumi orta təhsil bazası -38
Tam orta təhsil bazası - 26;
Buraxılış işinin hazırlanması və müdafiəsinə(yekun dövlət imtahanına) ayrılan həftələr - 4

Təlimin tamamlayıcı mərhələsində psixoloji-pedaqoji fənlər üzrə kurs işi nəzərdə tutulmuşdur. Tələbələr kurs işi üçün pedaqogika, psixologiya və ya xüsusi metodikalardan mövzu seçə bilərlər.

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı.

**5.1.** Orta təhsil müəssisəsinin 040110-"Məktəbəqədər təlim və tərbiyə" ixtisasının müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan təhsil proqramına fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş, maddi-texniki bazası olmalıdır. Təhsil alanların orta təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına çıxışı təmin edilməlidir.

Kabinet, laboratoriya, emalatxana və başqa otaqların siyahısı:

**Kabinetlər:**

1. Humanitar və sosial-iqtisadi fənlər;
2. Pedaqogika;
3. Psixologiya;
4. Anatomiya, fizioligiya və gigiyena;
5. Xarici dillər;
6. Metodika;
7. Təsviri sənət və üşaqların təsviri fəaliyyətinin inkişafı metodikası;
8. Musiqi və musiqi tərbiyəsi metodikası;
9. Mülki-müdafiə;

**Laboratoriyalar:**

1. Kompüter sinfi;
2. Fizika;
3. Kimya;

**İdman kompleksi:**

1. İdman zalı;
2. Açıq stadion;

**Zallar:**

1. Kitabxana və internetə çıxışı olan oxu zalı;
2. Akt zalı

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, müvafiq ixtisas üzrə ali təhsili olan müəllim heyəti tərəfindən aparılır.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** "Məktəbəqədər təlim və tərbiyə" ixtisası üzrə tələbələrin təhsili kredit sisteminə uyğunlaşdırılmış tədris planı və proqramları əsasında həyata keçirilir.

**6.2.** Subbakalavr hazırlığı mühazirə, məşğələ (laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir.

**6.3.** Subbakalavr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya, praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.4.** "Məktəbəqədər təlim və tərbiyə" ixtisası üzrə subbakalavr hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq, müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq, mülkiyyət növündən asılı olmayaraq, məktəbəqədər müəssisələrdə və s. keçirilə bilər.

**7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**

**7.1.** Subbakalavr səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsil alanların dövlət attestasiyası ilə yekunlaşır.

**7.2.** Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalar) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

**7.3.** Yekun attestasiya bütün təhsil alanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 4 həftədir.

**7.4.** Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanından (fənlərarası) ibarətdir.

**7.5.** Tələbələrin topladığı kreditlərin sayı 180 olmalıdır. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Orta ixtisas təhsili müəssisələrində subbakalavr səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya komissiyasının qərarı əsasında "subbakalavr" peşə-ixtisası dərəcəsi verilir.

**7.6.** Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil
Problemləri İnstitunun direktoru
________________Q.Novruzov
«_____»____________2014-cü il

Təhsil Nazirliyi Orta İxtisas
Təhsili sektorunun müdiri
_____________K.Mikayılov
«____»____________2014-cü il

Təhsil ixtisasları qrupu üzrə
Dövlət Təhsil Standartlarını
hazırlayan işçi qrupun sədri

_____________D.Hacıyeva

«____»_________2014-cü il

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Elmi Metodiki-Şurasının
"Məktəbəqədər və ibtidai təhsil"
bölməsinin sədri
______________________Y.Kərimov

«____»___________2014-cü il